**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ABŞ VƏ AZƏRBAYCAN NƏSRİNDƏ MÜHARİBƏ MÖVZUSUNDA ƏSƏRLƏRİN JANR XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5715.01– Ədəbiyyat nəzəriyyəsi ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Vüsalə İlqar qızı İbrahimova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Nailə Məhəmmədhüseyn qızı Sadıqova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Hacıyev Asif Abbas oğlu**

filologiya elmləri doktoru, dosent
**Quliyeva Mahirə Həmid qızı**

filologiya elmləri doktoru, dosent
**Hüseynov Qafar Möhsün oğlu**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05– Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**
______________

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**İsmixan Məhəmməd oğlu Osmanlı**
______________

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Məmməd İrac oğlu Əliyev**
______________

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müharibə və onun insan taleyinə təsiri məsələlərinə müxtəlif yazıçı mövqeyindən yanaşmaları çağdaş ədəbi proseslərlə üzvi əlaqəsi mövzunun aktuallığına dəlalət edir. XX əsr dünya tarixində inqilablar, müharibələr, dünya miqyasında siyasi və ideoloji sistemlərin mübarizəsi, qarşıdurması və nəhayət, ilk sosialist dövlət kimi meydana çıxmış SSRİ-nin dağılması əsridir; bu əsrdə cəmiyyət həyatında, hər bir xalqın həyat tərzində ciddi hadisələr, dəyişmələr baş vermişdir və bütün bunlar ədəbiyyata təsirsiz qalmamış, bəlkə əksinə, ədəbiyyat əsrin bütün bu qlobal hadisələrini əks edərək yeni ədəbiyyat yaranmışdır.

Azərbaycan və Amerika xalqları üçün bu dövr həm fərdi, spesifik, həm də oxşar, müştərək cəhətlərlə səciyyələnirdi. Ədəbiyyat bu mərhələdə insanı, xalqı əsrin möhtəşəm hadisələri – İkinci Dünya müharibəsi kimi hadisələrin içərisində iştirakını, mübarizəsini geniş lövhələrdə, epik miqyaslı təsvirlərdə təcəssüm etdirə bilmişdir.

Siyasət məngənəsinə düşən Azərbaycanın füsunkar Qarabağının ölüm, olum faciəsini həm poetik dillə, həm də nəsrlə bizim şair və yazarlarımız ifadə etmişlər. Vətənin ağrıları, faciəsi bütün şairlərin töhfələrini verdikləri fəryadlı poeziyamızın aparıcı xətti oldu.

Torpaqlarımızı düşmən tapdağından azad etsək də, yenə də gündəmdə müharibə və sülh, azadlıq və istiqlaliyyət kimi məsələlər var və bu da mövzunun aktuallığını şərtləndirir.

Amerika ədəbiyyatı Azərbaycan elmi-ədəbi mühitində həmişə ciddi marağa səbəb olmuşdur. Elmi araşdırmaların artan sayı və son dövrlər tərcümə olunan əsərlərin çoxsaylı faktları buna sübutdur.[1]

---

[1] Аникин Г.В. Литература США и антифашистская борьба. Литература США XX века. Опыт типологического исследования (авторская позиция, конфликт, герой), М., 1978, Белов С.Б. Современный американский роман о войне, М.,Знание,1987, Беляев А. Идеологическая борьба и литература, М., Худ.литература, 1988, Бочаров А. Человек и война, М., 1983.

XX-XXI əsr Amerika və Azərbaycan ədəbiyyatının müqayisəli tarixi və ədəbi tipoloji təhlili zamanı mövzu ilə əlaqəli elmi işlərdən, həmçinin ümumnəzəri tədqiqatlardan istifadə olunmuşdur. Keçmiş rus sovet ədəbiyyatşünasları II Dünya müharibəsindən sonra bu mövzunu ciddi araşdırmışlar. Lakin tənqidi fikrə diaxronik kəsikdə diqqət verdikdə məlum olur ki, yeni dövrdə ideologiyadan kənar daha obyektiv və daha hərtərəfli təhlilə ehtiyac var.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini XX– XXI əsrdə Amerika və Azərbaycan nasirlərinin müharibə mövzusunda yazılmış əsərləri təşkil edir. Bu məqsədlə tədqiqatda filoloji, ədəbi, bədii, publisist və s. aspektdə yazılmış əsərlər monoqrafik araşdırmalar və problematik məqalələr tədqiqata cəlb edilmişdir.

Amerika və Azərbaycan ədiblərinin müharibə mövzusunda yazılmış əsərlərində ədəbi qəhrəmanların etik və estetik təkamülünü araşdırmaq, müharibə şəraitinə düşən insanların psixoloji böhranın təhlilini, bədii fikrin ümumbəşər və milli-mədəni prosesləri fonunda öyrənmək tədqiqatın predmetini təşkil edir.

Məhz bu müharibəni bu gün də yaşayan xalq onun törətdiyi fəlakətləri olduğu kimi gələcək nəsillərə çatdırmağı özünə borc bilir. Bu gün müharibə haqqında yazılan əsərlərin çoxu hadisələrin şahidi olmuş adamlar tərəfindən qələmə alınmış və ona görə də inandırıcı və təsirlidirlər. Müharibə haqqında ən yaxşı əsərlər ABŞ nasirləri tərəfindən yazıldığı üçün, tədqiqat işi məhz ABŞ ədəbiyyatı ilə bağlıdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın əsas məqsədi XX-XXI əsr Azərbaycan və ABŞ yazıçılarının yaradıcılıqlarında müharibə və onun fəlakət və dəhşətlərini təsvir edən əsərlərini gerçəkliyin təcəssümündə realist üsullarından istifadə xüsusiyyətlərinin üzə çıxarılmasıdır. Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

– müharibə mövzusundakı əsərlərin janr xüsusiyyətlərini müəyyənləşdirmək;

– müharibənin şahidi olmuş yazıçıların əsərlərində insanın psixoloji durumunu, daxili ziddiyyətini müəyyənləşdirmək;

– əsərlərdə təsvir olunan qəhrəmanların timsalında insan təbiətinin müharibə şəraitində vəhşiləşməsi prosesini göstərmək;

– müxtəlif müharibələrdə düşmən obrazını təyin etmək;

– qəddarlığa müqavimət göstərə bilən xeyirxahlığın gücünü təyin etmək;

– hərbi münaqişələrdən sonra yaranmış əsərlərdə ayrı-ayrı fərdlərin təəssüratları əsasında gerçəkliyin təcəssümü xüsusiyyətlərini üzə çıxarmaq;

– müharibənin bilvasitə və ya bilavasitə insan taleyinə təsirini açıqlamaq;

– müharibə əleyhinə yazılmış əsərlərdə bədii üslubu təyin etmək;

– insanın mənəvi təkamülünü müəyyənləşdirən əsas faktorları nəzərə çatdırmaq;

– qəhrəmanlığın mənəvi mənbəyini göstərmək;

– Azərbaycan və ABŞ yazıçılarının yaradıcılığında müharibə nəticəsində yaranan mənəvi sarsıntılarının səbəbini açıqlamaq.

**Tədqiqat metodları**. Tədqiqat prosesində biz tarixi-müqayisəli, eləcə də tipoloji təhlil metodlarından istifadə etməklə, Azərbaycan və ABŞ ədəbiyyatının inkişaf tarixi yolunda elmi-tarixi faktlarla müharibə, militarist romanın tipinin yaradılması və XX əsr nasirlərin ədəbi-bədii yaradıcılığında onların bədii dərk metodlarının kəşfi istiqamətini müəyyən etmək üçün nəzəri təhlil və şərhi, elmi qənaətlərin hasili prinsiplərindən istifadə edirik. Dissertasiya işində problemin həlli ilə əlaqədar nəzəri təhlil, elmi-nəzəri mühakimələrin irəli sürülməsi nəzərdə tutulur.

Azərbaycan ədəbiyyatşünaslığında müharibə mövzusuna həsr olunmuş araşdırmalar ötən əsrin 60-70-ci illərindən başlamış və sistemli olmamışdır. Qarabağ müharibəsinə gəldikdə isə bu istiqamətdə tədqiqatlar aparılmamışdır.

**Müdadiəyə çıxarılan əsas müddəalar:**

– Müharibə mövzusu II Dünya müharibəsindən sonra ABŞ ədəbi-mədəni mühitində mühüm istiqamətlərdən birinə çevrilmişdir;

– Müharibə mövzusu özlüyündə tarixi şəraitlə əlaqədar olaraq bir neçə mərhələyə bölünür, lakin ənənələrə sadiq qalaraq onun yeni dərki hər iki ədəbiyyatı səciyyələndirən əsas xüsusiyyətlərdəndir;

– Müharibə mövzusu nəsrin hər janrında təmsil olunur və sənətkarın həyata münasibətinin və onu bədii təcəssüm imkanları ilə hüdudlanan müxtəlif ədəbi növləri ilə müşahidə olunur;

– ABŞ ədəbiyyatında həm ssientist, həm də antissientist əsərlər yaranaraq XXI əsr müharibələrinin artıq bir ölkə üçün yox, bütün bəşəriyyət üçün təhlükə yaratmış olacağını diqqətə çatdırırlar;

– ABŞ ədəbiyyatında insan şəxsiyyətinin faciəvi taleyi şahid ədiblərin realist əsərlərinin amansız təsvir obyektinə çevirir;

– Müasir müharibə mövzusunda yazılmış nəsrin janr sərhədlərinin genişləndirilməsi zəminində yeni forma modifikasiyalarının yaradılmasını mümkün etmişdir;

– Amerika və Azərbaycan müharibə mövzusunda yazılmış ədəbiyyatda kəsişən oxşar cəhətlərlə yanaşı fərqli cəhətlər daha çox sənətkarların estetik ideallarının fərqində reallaşır;

– Müharibə mövzusunda yazılan əsərlərdə realizm, modernizm və postmodernizm elementlərinin sintezi müşahidə olunur;

– Şəhidlik, həyat, əbədilik və Vətən məfhumları Qarabağ haqqında nəsrin əsasını təşkil edir;

– Müharibə mövzusunda postmodernist dövründə yazılmış əsərlərdə dövrün mühüm ideoloji, sosioloji və humanitar problemlərin həllinə yönəlməsi müşayət olunur;

– Müharibə mövzusunda yazılmış əsərlərdə ekzistensial, mənəvi-etik problemlərə qəhrəmanın fərdi və ümumbəşəri birlik mövqeyinin birləşməsi ilə şərtlənir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi də məhz bu problemin həllinə yönəlməsi ilə şərh olunur. Araşdırmanın yeniliyini əsaslandıran birinci istiqamət ondan ibarətdir ki, ilk dəfə olaraq müharibə mövzusu Azərbaycan və ABŞ romanlarının materialları zəminində planetin taleyi üçün məsuliyyətlə bərabər planetar təfəkkürün formalaşması məqamlarını müəyyənləşdirmək, bununla əlaqədar öz konsepsiyamızı əsaslandırmaqdır. İkinci istiqamət isə ədiblərin tarixi fakt və hadisələri özündə təcəssüm etdirən əsərlərində yazıçı mövqeyinin müəyyənləşdirilməsidir. Müharibə ilə bağlı əsərlərdə obrazlar aləmi, mövzu axtarışları müxtəlif ölkə yazıçılarının öz zamanlarının müharibəsinin real təsvirini verməklə insanları məruz qaldıqları problemlərin həll olunmasına yardımçı ola bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, işin əsas müddəaları müxtəlif ədəbiyyatların qarşılıqlı əlaqələri və təsiri, realizmin, modernizmin və post modernizmin xüsusiyyətləri problemlərinin öyrənilməsinə müəyyən əsas yaradır. Tədqiqat çağdaş ABŞ, ingilis və dünya ədəbiyyatı, eləcə də Azərbaycan ədəbiyyatı fənlərinin tədrisi prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın məzmununu əhatə edən əsas müddəa və nəticələr Beynəlxalq Simpozium, elmi konfranslarda məruzələrin tezislərində, məqalə şəklində çıxışlarında, eləcə də xarici ölkələrdə – Ukrayna, Qazaxıstan və Azərbaycan Respublikasında elmi jurnallarda çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş hissəsi 7 səhifə, I fəsil 54 səhifə, II fəsil 47 səhifə, nəticə 7 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, ümumi 218 045 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın ***Giriş*** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, araşdırmanın aprobasiyası və quruluşu haqqında elmi məlumat diqqətə çatdırılır.

Dissertasiyanın **"XX əsr ABŞ nəsrində müharibə mövzusu, onun əsas prinsip və istiqamətlər"** adı ilə təqdim edilən birinci fəsli dörd paraqrafdan ibarətdir.***"Müharibə mövzusunun təşəkkülü və inkişafı"*** adlı birinci paraqrafda qeyd edilir ki, Amerikanın yerli hindu qəbilələri, xalqları ingilislərin dözülməz qayda-qanunlarına qarşı 1861-1865-ci illərdə inqilabi müharibə nəticəsində Koloniyalar İngiltərədən ayrılaraq tam müstəqillik qazandılar.

O dövrdən etibarən ABŞ torpağı müharibə görməmiş və dünyanın ən qüdrətli dövləti yalnız I Dünya müharibəsinin sonunda Almaniyaya qarşı və II Dünya müharibəsində faşizmə qarşı mübarizəyə qoşuldular. Və məhz bu dövrdən başlayaraq, ABŞ ədəbiyyatında əvvəlcə "məhv olmuş nəsl"in faciəsini təsvir edən əsərlər diqqəti çəkir.

Bu gün ABŞ-ın ulduz müharibəsinə hazırlıq sahəsindəki texniki tədbirləri artıq insan nəzarətindən çıxaraq kompüterlərin nəzarətinə əsaslanır ki, bu da insanın özünü elmi-texniki tərəqqinin ixtiyarına verməsi deməkdir. Elmin, elmi-texniki tərəqqinin nailiyyətləri artdıqca müasir dövrün burjua futuroloqları da daha çox dərəcədə bir-birinə əks olan iki cəbhəyə ayrılırlar. Əgər ssientist futuroloqlar üçün elmi fetişləşdirmək, onun nailiyyətlərini həddindən artıq şişirdərək bütün ictimai bəlaları elmlə müalicə etmək ideyası səciyyəvidirsə, antissientist futuroloqlar müasir burjua cəmiyyətinin bütün uğursuzluqları elmlə bağlamağa, elmin bəşəriyyət üçün böyük fəlakətlər mənbəyi olduğunu, törətdiyi ziyanların xeyrini üstələdiyini göstərməyə çalışırlar. ABŞ ədəbiyyatında həm ssientist, həm də antissientist əsərlər yaranaraq XXI əsr müharibələrinin artıq bir

ölkə üçün yox, bütün bəşəriyyət üçün təhlükə yaratmış olacağını diqqət mərkəzinə çatdırırlar.

Yaranmış vəziyyətin real təhlükəsini bütün tərəqqipərvər qüvvələrin nəzərinə çatdırmaq və bəşəriyyəti bu təhlükədən xilas etmək bu gün dünya elm adamlarının tarixi vəzifələrindən birinə çevrilmişdir.

Herman Melvinin "İzrail Potter əlli il sürgündə" romanı tarixi faktlarla müharibənin insan həyatında əbədi-əzəli olmasından və eyni zamanda faciəvi hadisə kimi təsvir etmişdir. Lakin əsərdə müəllifin müharibəyə olan ikrah hissi qəhrəman yox müəllif tərəfindən göstərilmişdir.

Əsərdə yazıçı cəmiyyətə və insan həyatına bəla gətirmiş müharibənin harmoniyanı pozduğunu, hər şeyi vəhşi xaosa, özbaşınalığa çevirdiyini yüksək bədii rəmzlərlə əks etdirir.

XX əsrin əvvəllərini bədii metodların, ədəbi cərəyanların çarpazlaşmasına baxmayaraq realizmin təntənəsi dövrü adlandırmaq olar. Həmin proses ikinci dünya müharibəsinə qədər davam edir. Müharibədən sonra makkartizm hərəkatı ədəbiyyatın vüsəti inkişafını bir qədər ləngitdi. XX əsrin Amerika realizminin qüdrətli nümayəndələri T.Drayzer, C.London, F.Norris və başqaları həyat reallıqlarına, qəribə taleli sadə amerikalıların faciəvi obrazlarını yaratmışlar. Müharibədən sonrakı gərgin, çətin və ziddiyyətli kapitalist Amerikasında gənc nəslin taleyi problemi ön plana çıxmışdı. Həmin problem də öz aydın bədii izahını məhz "məhv olmuş nəslin" əsərlərində E.Heminqueyin "Günəş doğanda", F.S.Fitsceraldın "Cənnətin bu tərəfi" və C.D.Passosun "Manhetten" romanlarında tapdı. Birinci Dünya müharibəsində Fitscerald ABŞ ordusunda xidmət etmişdi. Amerika Birləşmiş Ştatlarının ədəbiyyatı digər Qərb ədəbiyyatlarından gəncdir.

Müharibəyə nifrət, müharibəsiz dünya ideyası Heminquey yaradıcılığının təməl daşıdır. Heminquey bütün yaradıcılıq həyatını insan xoşbəxtliyinin axtarışlarına həsr etmişdir. O, mütərəqqi fikirli yazıçı olduğundan antifaşizm mövzusuna müraciət etmişdi. Müharibəni insanların total psixoz zamanında

olduğu kimi, kütləvi şəkildə ağıllarını itirməsi kimi qiymətləndirirdi.

1950-ci ildə Nobel mükafatına layiq görülən məhşur ABŞ yazıçısı Uilyam Folknerin ilk romanı "Əsgərin mükafatı" (Soldiers Pay, 1926) müharibədən dönmüş veteranın acı taleyindən bəhs edir. Dos Passosun "Üç əsgər" (Three Soldiers, 1921) romanında müharibənin dəhşətlərinin naturalist təsvirini vermişdir. Militarist qayda-qanunun və amansız şəraitin müxtəlif tipli insanlara təsiri bu əsərin əsas mövzusudur. İnsanların özgələşməsi, mənəvi sarsıntıları, hər an ölümlə qarşılaşması həyatın mənasızlığı kimi problemlərin yaranmasına səbəb olmasını araşdırmağı qarşımıza məqsəd qoyuruq. Adı çəkilən əsərlərdə müharibənin bəzəksiz təsviri verilmişdir.

Müharibənin lehinə və əleyhinə olan əsərləri tədqiq etmək baxımdan İ.Şounun "Cavan aslanlar" (The Young Lions, 1948) əsəri qeyri adi süjet xətti və fövqəlzaman prinsipindən istifadə edərək "balaca" insanın – dağ xizəkçisi instruktorunın faşistləşmə prosesini dəqiqliklə göstərmişdir. Şou təhkiyənin sərhədlərini genişləndirib müharibəni Avropadan tutmuş Amerika, Afrika ölkələrinə də təsirsiz olmadığını, müxtəlif millət, din, etiqad, hərbi rütbə sahiblərinin talelərindən keçirdib üç personajın: amerikalı Maykl Gaytekr və Noy Akkerman və nasist Xristian Distl üzərində dayanır.

Və bu üçlük müharibəyə öz ölkə, ordu və hökumətin gözü ilə baxmalı və nəticə çıxarmalı olurlar. Nəhayət müharibənin son akkordlarında Bavariyada görüşən üçlük dramatik məqamları yaşamış olur: vəhşiləşmiş Distl pusquda duraraq öz həmyaşlısı Noyı öldürür və dərk edir ki, Maykl onun intiqamını bunu öldürməklə alacaq.

Bu günün elmi-nəzəri fikri yazılı ədəbiyyatın praqmatik funksiyalardan sərf-nəzər edilməsini və bədii-estetik funksiyanı "yeganə funksional keyfiyyət kimi" elan edilməsini birmənalı qarşılamır. Müasir milli ədəbiyyatşünaslıq düşüncəsində əyləndirici-estetik funksiya yazılı ədəbiyyatın idrakı, tərbiyəvi funksiyaları ilə bir sırada yer alır. Nəzəriyyəçi alim R.Əliyev

tamamilə doğru qənaətə gəlir ki, "müxtəlif janrlarda ədəbiyyatın müxtəlif funksiyaları aparıcı olur"[2].

Aristotelin sözləri ilə desək o ədəbi növləri və janrları "Təqlidetmənin vasitələrinə görə" fərqləndirir. Başqa sözlə, janr sənətkarın həyata münasibət tərzi, onu bədii təcəssüm imkanları ilə hüdudlanan bədii formadır. Bədii forma kimi o mənsub olduğu dövrə, aid olduğu ədəbi cərəyana, yaradıldığı bədii dilin poetik vasitələrinə və üsluba görə müəyyənlik əldə edir. Şübhəsiz ki, burada sənətkarın həyata münasibətinin başında dayanan estetik idealın mühüm rolu vardır.

1935-ci ildə "Bizdə bu mümkün deyil" romanı ədəbi mühitdə olduğu kimi, ictimai həyatda da bir "partlayış" kimi meydana çıxaraq çox geniş oxucu auditoriyası qazanmaqla bərabər, ilk faşizm əleyhinə Amerika ədəbiyyatında yazılmış əsərdir. Amerika cəmiyyətinin mikrokosmosu kimi kiçik əyalət şəhərin timsalında Fort Byul adlı faşistlərin tərəfkeşləri olan siyasətçiləri ifşa edib onların əməllərini başa salmağa çalışırdı.

Faşizmi aydın və inandırıcı şəkildə əks etdirən ədib zamanın ideya istiqamətinə tamamilə uyğun olmaqla, böyük təsir gücünə malik idi. Roman-utopiya "Bizdə bu mümkün deyil" əsərində də antifaşist mövzu, ümidsiz gələcəyin təsviri əsas götürülür. Lyuisin realizmini "fotoqrafik" dokumental adlandırırdılar. Çünki özü də amerika əyalətinin sakini olaraq öz qəhrəmanları ilə eyniləşmiş, müəllif-qəhrəman arasında tələb olunan məsafəni saxlaya bilməsinə görə günahlandırılırdı. Yeni kəşflərin insanın xeyrindənsə, ziyanına yönəlməsi, elmin insan nəzarətindən çıxıb nəticədə məhvə aparması Xirosimadan altı il əvvəl "Qalileyin həyatı" adlı əsəri ilə əsrin ilk öncəgörmə hadisəsini təsvir etmişdir.

Tədqiqat işinin ikinci paraqrafı ***"Hərbi roman janrının bədii estetik xüsusiyyətləri. Müharibədə insan amili"*** adlanır.

Uzun illər oxucuya estetik zövq aşılamaq yazılı ədəbiyyatın yeganə estetik funksiyası hesab edilmişdir. Bu günün elmi-nəzəri fikri yazılı ədəbiyyatın praqmatik funksiyalardan sərf-nəzər

---

[2] Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı, "Mütərcim", 2008, – s 213.

edilməsini və bədii-estetik funksiyanı "yeganə funksional keyfiyyət kimi" elan edilməsini birmənalı qarşılamır. Müasir milli ədəbiyyatşünaslıq düşüncəsində əyləndirici-estetik funksiya yazılı ədəbiyyatın idrakı, tərbiyəvi funksiyaları ilə bir sırada yer alır. Nəzəriyyəçi alim R.Əliyev tamamilə doğru qənaətə gəlir ki, "müxtəlif janrlarda ədəbiyyatın müxtəlif funksiyaları aparıcı olur"[3]. Bu mənada roman janrında, heç şübhəsiz ki, əyləndirici-estetik funksiya, idrakı tərbiyəvi funksiyalardan sonra gəlir. İdraki funksiyanın önə keçməsi romanın sosial və fəlsəfi təbiəti ilə birbaşa bağlıdır. Məhz bu mənada roman "dünya modeli" elan edilir və bu elan onun üzərinə düşən missiyanı şifahi ədəbiyyatın, deyək ki, eposun üzərinə düşən funksiya ilə eyni müstəviyə gətirir.

XX əsrin ikinci yarısından sonra ədəbi prosesinin səciyyəvi cəhətlərindən biri də janr münasibətində dəyişmələrin baş verməsidir. Janrlararası münasibətlərdə keçmələr, poetik qarışıqlıq bu dövrün ədəbi janrları üçün səciyyəvidir. İndi sırf saf janrdan danışmaq bir qədər çətindir. Ümumiyyətlə, burada poetik ehkamçılığa yol verməyə ehtiyac yoxdur. Elmi Texniki İnqilabın başlanması ilə bağlı stresslərin artması – yəni zəmanə özü artıq 60-cı illərdən başlayaraq janrlara çeviklik və yığcamlıq gətirən elementlərin gəlməsinə şərait yaratdı. Ədəbiyyatda psixologizm gücləndi, sənət pafosdan, patetikadan, möhtəşəm bədii təsvirlərdən, təfərrüatlardan adiliyə endi.

Azərbaycan alimi N.M.Sadıqova janrlar haqqında belə yazır: "XX əsr ədəbiyyatı fövqəljanr müxəlifliyi və tədricən dəyişkən janr və janr sistemləri ilə səciyələnir: Bəzilərindən rəhmsız imtina olunur, bəziləri köhnəlmiş elan olunur, yeniləri peyda olur və sonra öz yerlərini başqalarına verir, əvvəllər uyuşmayan janrlar, indi qəribə sintez yaratmış olurlar... lakin müəyyən janrlardan imtinaya heçdə onların izsiz qeyb olması

[3] Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı, "Mütərcim", 2008, – s. 213.

deməқ olmaz, çünki "klassik janrlar tamam yeni, gözlənilməz formalarda peyda ola bilər"[4].

Ədəbiyyatşünaslıq elmindən məlumdur ki, trilogiya bir müəllifin ideya ümumiliyi və mövzu ardıcıllığı, süjeti ilə birləşən üç ədəbi əsərdir. Trilogiya klassik ədəbiyyatdan üzübəri gələn ədəbiyyatşünaslıq terminidir, belə ki: Dramaturji, yaxud təhkiyə janrında yazılıb, vahid müəllif qayəsi ilə bir-birinə bağlı olan üç ədəbi əsər.

Hər hissə müstəqil sayılır və hər birinin də, öz müstəqil adı var. Sadəcə, bu müstəqil romanları eyni mövzu və eyni obrazlar birləşdirir. Burada dərin həyati müşahidə, yaşanmış həyatın qənaətləri, zamana, dünyaya, insan aləminin ziddiyyətlərinə kəskin baxış bucağı altından nəzər var. Görünənlər sözlə göz önünə gətirilir. İstedadlı qələm sahibi Ceyms Counsun diqqətçəkən nəsr nümayəndələrindən biri kimi iri həcmli memuarvari trilogiyası: "Buradan əbədiliyə doğru", "Nazik qırmızı xətt", "Sadəcə səslə" adlanır.

"Buradan əbədiliyə doğru" romanı mövzusunun genişliyi, aktuallığı, toxunulan problemlərin taleyüklülüyü, tarixi və ədəbi dəyər baxımından Amerikan bədii nəsrinin müharibə haqqında yazılan ədəbiyyatın ən parlaq və nadir nümunələrindəndir.

Havay adalarında hərbi xidmətdə olarkən yaponların Perl-Harbora 1941-ci ildə hücumunun şahidi olmuş, Quadalkanal adasında gedən döyüşlərdə iştirak etmiş, yaralanandan sonra ordudan 1944-cü ildə təxris olunmuş Ceyms Couns ABŞ hərbi roman ustalarının liderlərindəndir. "Folkner və Hemengveyi kim əvəz edə biləcək?" sualına 60-cı illərin tənqidçiləri ən çox gənc Counsun adını çəkirdilər.[5] "Buradan əbədiliyə doğru" (From Here to Eternity, 1951) ilk romanı Amerika ədəbiyyatında müəllifini öncül cərgəyə qoydu.

Sonralar "Nazik qırmızı xətt" (The Thin Red Line, 1962) və "Sadəcə səslə" (Whistle, 1978) və "Buradan əbədiliyə doğru"

---

[4] Садыхова Н.М. Современная амриканская научная фантастика. Проблемы метода и жанра (на матеиале амерк литературы) Баку: 1987, – s. 83.

[5] Никомокин А.Н. Американский романтизм и современность. М. «Наука», 1986, – s. 30.

romanları trilogiya yaratmışdı. Hər üç əsərdə sadə amerika əsgərinin özünü bir fərd kimi, itaətkar oyuncaq olub məhv olmaması uğrunda apardığı mübarizənin şahidi oluruq. “Bu romanda ilk dəfə təqdim olunan bir çox mövzular müharibədən sonrakı amerika nəsrində şöhrət tapdılar. Özgələşmə və ünsiyyətsizlik, anonimlik, simasızlıq, şəxssizləşmə – bütün bu kimi sosial-psixoloji kateqoriyalar hərbi həyatın qabarıq realistik səhnələrində təqdim olunmuşdur. Faciə hissi əsərdə “müharibənin dəhşətləri”lə deyil, məhvedici hərbi bürokratiya şəraitində daha acınacaqlı təzahür edən burjua cəmiyyətinin ağıla sığmayan boş həyat tərzi, ilə göstərilir” – deyə Amerika ədəbiyyatının sovet mütəxəssisi Mulyarçik yazır. Əsərin baş qəhəmanı Robert Pryuit, və ya sadəcə dostları deyən kimi Pryu adi bir sıravi əsgərin, həyatın və zamanın formalaşdırdığı minlərlə gənclərin taleyini yaşayan cavanın obrazı – gənc müəllifin əsas uğuru idi. Otuz illik hərbi xidmətə yazılan şaxtaçı oğlu “əsgər olmaya bilməzdi. Onun kimi oğlanlara bu yeganə çıxış yolu idi”. [6]

Bir dəfə şeypuru əlinə alan Pryu onun cazibə qüvvəsini, möhtəşəmliyini və təntənəsini hiss edir və eyni zamanda elə zəriflik və qəmli hisslər keçirir o məqamda ki, başa düşür – şeypur çalmağa onun istedadı var. Və o, düşünür ki, öz amalına özünü həsr edə bilirsənsə, deməli həyatın uğurlu sayıla bilər. Və o, öz silahdaşı tərəfindən öldürülməyə məhkum olunandan çox əvvəl dostları ilə birgə öz həyatına və sadə, adsız əsgərlərin həyatına “Hərbi qulluqçunun blyuzu” əsərini – rekviyem bəstəliyir. “Buradan əbədiliyə doğru” roman Pryunun ölümünün bilavasitə günahkarı olmuş rota komandiri Xolmsın oğlunun anası ilə çox mənalı söhbət ilə yekunlaşır. ABŞ Təzəcə İkinci Dünya müharibəsinə qoşulub. Karen Holmsın atasından keçən hərbi xidmətə olan həvəsi anasəna belə bir sual ilə müraciətini gorürük: – “Ana, necə bilirsən, bu müharibə mən Uest Pointdə

[6] Мулярчик, А.С. Спор идет о человеке. О литературе США второй половины XX века. / А.С.Мульярчик. – Москва: Советский писатель, – 1985, – s.47.

hərbi məktəbi qurtarana qədər çəkər məndə orada iştirak edim?" – deyə soruşur. "Ana inkar cavabı verir, lakin dərhal oğlunu "əmin" etməyə çalışır ki, "sən böyüyənə kimi başqa bir müharibə başlayar" – "Sən əminsən, ana?"– oğul fikirli soruşur. [7]

C.Counsun "Nazik qırmızı xətt" romanı on beş il müharibədən sonra yazılan antimilitarist əsərdir. Bu kimi romanlar müharibədən dərhal sonra yazılan əsərlərdən fərqlənirdilər, çünki bu illər ərzində baş verən hadisələr onları səciyyələndirən personajların kontekstində açılırdı. Müharibədən sonrakı Amerika həyatı yazıçıları qırxıncı illərdə yaşamış qəhrəmandan aralanmaqlarına səbəb oldu. Bu zaman müharibə gerçək həyatın problemlərin həll etməsi üçün bir fon kimi göstərilir.

Əsərin adı da qədim atalar sözündən götürülüb. "Müqəddəs insanı dəlidən yalnız nazik qırmızı xətt ayırır". Xeyirlə şər arasında da yalnız nazik qırmızı xətt mövcuddur. İnsanın daxilindəki ziddiyyətlər müəllifin əsas məramıdır. Müharibə şəraitinə düşən insan psixologiyasının təşviqinə çox diqqətlə yanaşan müəllif insanın daxili konfliktini insan və cəmiyyət, insan və vicdan, insan və məhəbbət kimi problemlərini də görür. Trilogiyanın sonuncu hissəsində – "Sadəcə səslə məni" romanında insanın hətta faşizmə qarşı aparılan müharibənin də əleyhinə çıxması göstərilir. Ona görə rus ədəbiyyatçıları onun bu əsərini ən çox faşizmdən əziyyət çəkən avropalılara qarşı təhqir kimi qəbul edirdilər. Lakin son romanında Couns 1978-ci ildə II Dünya müharibəsindən 33 il keçdikdən sonra, Koreya və Vyetnam müharibələri, ərəb-İsrail qarşıdurması və s. nəticəsində ədibin müharibədə insan amilinə münasibətinin dəyişməsi ilə nəticələndiyindən bəhs etmişdirə Ümumiyyətlə müharibə əleyhinə çıxış edən müəllif bir daha bu əsərdə öz mövqeyini bəyan etmiş oldu.

***"Hərbi roman janrının modifikasiyası"*** adlı üçüncü paraqrafda XX əsrin ikinci yarısında ədəbi prosesdə əsas və

---

[7] Ковалев, Ю.В. Джеймс Джонс и его герои. Джеймс Джонс. Только позови. / Ю.В.Ковалев. – Москва: Радуга, – 1983, – s. 850.

mərkəzi təmayüllərdən biri mövcud estetik meyar və dəyərlərə tənqidi münasibətdən danışılır. Gənc ədəbi nasir 30-40-cı illərdə Amerika ədəbiyyatında formalaşmış və 50-60-cı illərdə isə daha da möhkəmlənmiş bədii norma və kriteriyalara tamamilə yeni mövqelərdən yanaşırdı. Bədii təfəkkürün ictimai gerçəkliyə münasibəti, müsbət və mənfi qəhrəman bölgüsü, ədəbiyyatın qabaqcıl və baş qəhrəman konsepsiyası, keçmişə və yeni dəyərlərə yanaşma, çağdaş dünyaya baxış və s. demək olar ki, yeni nəslin əsərlərində ciddi dəyişikliklərə uğrayırdı. Ədəbi gəncliyin erkən nəsrində diqqəti cəlb edən əsas yenilikçi cəhət mövcud ədəbi qayda və qanunlara məşhur obraz və obrazlar sisteminə dekonstruktiv yanaşma idi. Dekonstruktivizm bu dövrdə müxtəlif üslub və axın nümayəndələrini yaxınlaşdıran, bir çox cəhətdən birləşdirən ən qüdrətli tendensiya idi. Cozef Hellerin “Tələ–224” əsərinin satirik və yumoristik nəsr üslubu öz ahəng və intonasiyasına, bir çox xüsusiyyətlərinə görə, başqa satirik nəsr üslublarından fərqlənir. Onun qatı, kəskin və qəzəbli kinayəsi, şən əhval-ruhiyyə yaradan yumordan fərqlidir. C.Heller cəmiyyətə narazı münasibətini sətiraltı mənalarla, istehza, güclü kinayə vasitələri ilə ifadə etməsi ilə oxucuları əyləndirmək üçün yox, düşündürmək üçün gülürdü. Bu gülüş acı və amansızdır. Müəllifin satirası İkinci Dünya müharibəsində dünyanı qan çanağına çevirmək istəyən bütün qara qüvvələrə yönəlirdi. Bu zaman onun gülüşü daha sarsıdıcı, öldürücü səciyyə daşıyır, daha böyük ictimai əhəmiyyət kəsb edirdi. Hər qəhqəhəsi qəzəb, kin və nifrət alovları saçırdı. İkinci Dünya müharibəsində hərbi-hava donanmasının qulluqçusu kimi iştirak etmiş Cozef Heller öz təəssüratlarını satirik və cəfəng üslubda “Tələ– 22” (Catch– 22, 1961) romanında canlandırmışdır. Kurt Vonnequt Hellerin müharibə haqqında bu son əsərini Amerikanın faşizmlə aparılan mübarizədə iştirakını böyük bir yalan kimi təyin etdi.

Hellerin təsvir etdiyi müharibə həcmcə böyük bir yarmarkanı xatırladır: burada hər şey satılıb alınır; insan həyatları, rütbələr və vəzifələr, neft və diyirçəkli podşipnik, türk noxudu və qara gavalı. Alverə, düşməni daxil etməklə, hamı cəlb

olunub. Eləcə də, təkcə düşmən hərbi obyektlərini deyil, mülki şəxsləri, elə öz eskadrilyalarında bombardman edirlər.

Yazıçı-fantast Kurt Vonnequt ədəbiyyata özünəməxsus mövzularla gəlmişdir. Onun əsərləri fərdi təsvir forması, süjet tamlığı və həyat lövhələri ilə oxucunun gözü önündə müharibə epizodlarını dayandırdı. Əsərləri mövzu əlvanlığı və kompozisiya bitkinliyi ilə seçilir. "Beş nömrəli sallaqxana; və ya uşaqların səlib yürüşü" romanında (Slaughterhouse Five; or The Children's Crusade, 1969) əsərində fikirlər, ifadələr aydın və sadə olduğu qədər də fəlsəfi və düşündürücüdür. Yazıçı fantastik roman janrına müraciət edərək vaxt, zaman kəsiklərinə özünəməxsus rakurslardan yanaşmaqla bircə anla, min ili yaxınlaşdırır, həyatla ölüm və olum arasındakı münasibətlərə öz arşını, baxış bucağı ilə yanaşır. O, zamanı qabaqlamağa çalışır. Müəllif eksperiment apararaq zamanı əsərin infrastrukturuna, obrazına daxil edərkən o, zamanı adi müşahidəçi kimi yox, həm də həyatın mahiyyətinə, onun gedişatına təsir edə biləcək element kimi, ortaya qoyur, ondan deyimin uğurlu şəkildə ifadə olunması məqsədilə istifadə edir. Həqiqət uydurmadan daha dəhşətli və inanılmaz olduğu üçün müəllif qrotesk və fantastikadan istifadəni elə ilk səhifədən başlamaqla qəhrəmanı iki müharibənin –İkinci Dünya və Vyetnam müharibələrinin iştirakçısına çevirir.

Dördüncü paraqraf ***"Müharibə və onun müxtəlif əyaniləşmə formaları***" adlanır. Keçən əsrin ortalarından dünyanın taleyi üçün narahatçılıq keçirən və bu həyəcanları, narahatlıqları insanı, dünyanı, təbiəti qorumaq motivləri üzərində kökləyən ədiblər yetişdi.

Yer kürəsinin gələcəyinə, varlığına narahat olan qələm sahibləri Dünya – Yer kürəsini barıt çəlləyinə bənzədib, insanlar öz ayağının altına qoyub bu mərmini, istehsal etdikləri bombalarla yer kürəsini dünyadan yox edəcəklərindən qorxur, narahat olur və bu dağıdıcı, məhvedici bombaların ondan da dəhşətli təhlükələr törədəcəyindən narahatlığını ifadə edirlər. Stefan Qeym Amerika həyatını müharibədən çox uzaq, lakin bilavasitə onunla əlaqədə olaraq qələmə alan nasirlərdəndir. Qeymin məhşur hekayələrində hərbçi olmayan və müharibədə

iştirak etməyən, lakin qaynar hadisələrlə sıx bağlı olan insanların psixoloji durumunun təsviri ilə insan təbiətinin mahir bilicisi və realist nasir kimi tanınmışdır. Onun hekayələrinin qəhrəmanları dünyanın o başında gedən müharibələrə görə həm gərgin psixoloji, həm də ağır fziki vəziyyətə düşən insanlardır.

Stefan Qeym tərəfindən yazılmış "Birə" hekayəsi də onun mahir psixoloq olduğunu bir daha göstərir.

Hekayə professor Elinqtonun Kemp şəhərində yerləşən qarajında şənbə səhərinin təsviri ilə başlayır. Professor Elinqton çox məmnuniyyətlə Amerikanın müdafiə gücünün artması naminə çalışır. Və məhz onun sayəsində həddən məxfi bakteriya "iyirmidən üçyüz" seriyasından alınmışdı və onun Pentaqondakı rəhbərinin dediyinə görə: "Professor" Elinqton olmasaydı "E–327" hələ də həyata keçməmiş arzu olaraq qalacaqdı. Əsl faciə cənab Elinqtonun sabahı gün "E–327" bakteriyasına yoluxduğu məlum olandan sonra baş verir.

Həyat yoldaşı və övladlarının yoluxmaması üçün Elinqton Kempa qayıtmaq və Moto ilə danışmaq qərarına gəlir. Və birdən XX əsrin amansız zarafatını düşünərək anlayır ki, o, artıq özü məxfi silaha, zəhərlənmiş gülləyə çevrilib və istədiyi vaxt atıla bilər. Özü əzab-əziyyətlə öləcək. Onun ölümündə günahı olan insanlardan intiqam almaq iqtidarında idi. Və professor günahkarları axtarmağa başlayır. Daxili iztirablar keçirərək "Birdən o, əczəxananın qarşısında dayandı və pəncərədən gözlərini ona dikəltmiş qatili gördü. Vitrinin keyfiyyətsiz şüşəsi görüntünü tanınmaz etmişdi, lakin o yenə də kifayət qədər aydın idi: hündür, qamətli, xoşagələn amerikalı, əla ailə başçısı, şəhər ətrafında evi, yaxşı geyimli və nə üzündə, nə də baxışında cinayətkara oxşar bir əlaməti olmayan – budur əsl qatil!

Ulyam Stayron çağdaş Amerika ədəbiyyatında ədəbi-bədii, fəlsəfi-estetik və milli düşüncənin formalaşmasında əvəzsiz xidmətləri olan yazıçıdır. Koreya müharibəsinin ən şiddətli məqamında baş verən kəskin hərbiləşməyə öz tənqidi münasibətin 1952-ci ildə çıxan "Uzun sürən yürüş" hekayəsi ilə yazıçı-pasifist Ulyam Stayron öz mütərəqqi ideyaların bir realist kimi qələmə almışdır.

Bir vaxt keçdikdən sonra qələmə alınmış hərbi təcrübə ehtiraslı bir yazıçının qələmindən çıxmış əsər təsiri bağışlayır. Hekayənin ərsəyə gəlməsinin səbəbi amerikalıların Koreyada apardıqları müharibə idi. Bu gün yenə Amerika Koreyanı müharibə ilə hədələməkdədir. Deməli əsərin mövzusu bu gün də çox aktualdır.

Görkəmli jurnalist və publisist Stiv Kol və Çerenu Bouen müharibə həqiqətlərini əks etdirən əsərləri sənədli-publisistikanın təzahürünə çevrilir. Müharibə dövrünün tələblərindən irəli gələn ən yararlı və operativ janrlar hekayə, oçerk, şeir, publisistik məqalələrdə qanlı-qadalı döyüşlərin canlı iştirakçısı olub və bu ümdə səbəbdən də oxucu ruhuna müharibənin psixoloji ovqatını aşılaya bilir, oxucunu qiyabi-xəyalən müharibənin od-alovunun içinə ata bilirlər. Əsərlərdə bədii obrazlar hesabına fakt və hadisələri müxtəlif rakurslardan şərh edən müəlliflər iri dövlətlərin siyasi mənafeləri nəzərə alınmaqla müharibə kimi taleyüklü məsələni dünyəvi qanunlar və geosiyasi vəziyyət kontekstindən nəzərdən keçirirlər.

Əsərlərin sənədli faktlarla bolluğu dramaturji strukturun əsasını yaratmış olur.

**“XX əsr Azərbaycan ədəbiyyatında hərbi müharibə mövzusu və onun bədii fikirdə inikası”** adlı ikinci fəsil dörd paraqrafdan ibarətdir. ***“XX əsr müharibələrinin Azərbaycan nəsrində əksi”*** adı ilə təqdim edilən birinci paraqrafda göstərilir ki, bəşəriyyətin ümumi dərdi olan müharibələr həmişə dəhşət saçmış, faciəyə çevrilmiş və kütləvi ölümlər gətirmişlər. Həyatın və zamanın çoxlu cəngi-cidalları olur və bu gün də var. Müasir çağımızda bu əndazədən çıxır. Azərbaycan nəsrində müharibə haqqında ilk romanın müəllifi Əbülhəsən Əlibaba oğlu Ələkbərzadə oldu. Əbülhəsən müəyyən döyüş təcrübəsi olmayan, hətta silah tutmağı bacarmayan azərbaycanlıların tədricən, əsl döyüşçüyə çevrilməsi prosesini əks etdirmişdir. Əlbəttə, ilk dəfə “Dostluq qalası” olan “müharibə” romanı nöqsansız deyildir. Lakin Əbülhəsən bilavasitə böyük bir döyüş yolu keçmişdi, onun romanı da dərin həyati müşahidələrinin məhsulu idi. Sonralar müharibə mövzusunda “Uzaq sahillərdə” (İmran Qasımov, Həsən

Seyidbəyli) "General" (Hüseyn Abbaszadə), "Qartal əfsanəsi" (Əfqan), "Kəhrəba işığında", "Yeddi ulduzlu səma", "Gecə günəşi" (Gəray Fəzli), "Mübahisəli şəhər" (Süleyman Vəliyev) və s. romanlar yarandı. Lakin qeyd olunmalıdır ki, bu romanların heç birində müharibə həqiqətləri Əbülhəsənin romanında olduğu kimi səslənmədi.

1918-ci ildə milli ədəbiyyatıımızın nəhənglərindən biri H.Cavid imperialist müharibəsi əleyhinə "İblis" faciəsini yazır. Hadisələr Birinci Dünya müharibəsi zamanı Türkiyə və Ərəbistanda cərəyan edir. Böyük dramaturq insanların necə qanlar tökdüyünü, İblisə uyduqlarıını əks etdirib. Deməli, dünya durduqca insan nəfsindəki Mələklə İblisin, Xeyirlə Şərin, Ədalətlə Zülmün bir-birilə canlı çarpışması davam edəcək. Bu iki əks qüvvəyə Nəsirəddin Tusinin ifadəsilə desək, fəzilət və rəzalət də deyilir. Bizim daxilimizdə fəzilətlə rəzalət həmişə bir-birilə aktiv mübarizədədir. Fəzilət rəzalətə qalib gələndə insan – Mələk, fəzilət rəzalətə məğlub olanda İnsan-Şeytan olur.

İkinci Dünya Müharibəsi özünün miqyasına və insan tələfatına görə dəhşətli bir savaş idi. Müharibə dünyanın əksər dövlətlərini əhatə etmiş, cəbhələrdə milyonlarla insan qurban getmiş, böyük şəhərlər darmadağın edilmiş, xarabalığa çevrilmişdi. Azərbaycan da Böyük Vətən müharibəsinin əsas ağırlığını öz üzərinə götürmüş ölkələrdən biri idi.

İkinci paraqraf ***"Qarabağ müharibəsi haqqında nəsrdə reallığın inikası üsulları"*** adlanır. Qarabağ müharibəsi milli istiqlal mövzusuna çevrilmişdir. Ölkənin ərazi bütövlüyü uğrunda aparılan mübarizənin faciəli səhnələri ədəbiyyata gəlmişdir. Qarabağ müharibəsi mövzusunda yazılan bədii və bədii-publisist əsərlər bütövlükdə müasir Azərbaycan ədəbiyyatının ideya istiqamətini dəyişmiş, vətənin nicatı bədii fikir – məğzini çox mühüm amil səviyyəsinə yüksəltmişdir. Müasir azərbaycan ədəbiyyatını təmsil edən yazıçılar bədii forma və üslub müxtəlifliyi cəhətdən bir-birlərindən fərqlənsələr də, onları milli ruh, vətəndaşlıq mövqeyi, həyəcan, çağırış, birlik və vətənpərvərlik duyğusu birləşdirir.

Ədəbiyyatımız uzun illər bu həqiqətlərdən danışa bilməmiş və Qarabağın başının üstünü düşmən yenidən almağa başladıqda, bu həqiqətlərə qayıtdı.

Hüseynbala Mirələmov çoxçeşidli yaradıcılığının mahiyyəti, onun ziaylı təəssübkeşliyindən yaranan əsərlərində olduqca təsirlidir, çünki müəllifin ürək döyüntüləri, səmimiyyəti və oxucu ilə təması aydın duyulur. Janrdan asılı olmayaraq, hadisələri görüb duyduğu təki yüksək erudisiyası, ədəb-ərkanıyla, müsahibi ilə üzbəsurət söhbətləşirmiş kimi səmimi ifadə edə bilən yaradıcı şəxsdir. Qarabağ mövzusuna müraciəti, tarixi məqamlara həssaslıqla yanaşması, müəllifin hiss-həyəcanlarının ənənəvilikdən uzaq olan fərqli üsluba və formaya malik olması oxucular arasında geniş yayılmasına səbəb olmuşdur. Müəllifin qəhrəmanları taleyi ilə vətənə bağlıdır,vətənin içindədirlər və ondan ayrılmayıblar. Onlar çətinə düşən ölkəni, tarixi situasiyanı duyur, insanlığı sarsıdan qorxunc hadisələr qarşısında özünü təsdiq etmək zərurəti ilə üz-üzə qalmış insanlardır. Müəllif çox ciddi arqumentlərə toxunaraq düşündürməyi bacarır, soydaşlarını tarixin dərslərindən nəticə çıxarmağa çağırır. “Heykəllərin harayı”nda kı kimi dilin sadəliyi, fikrin sanbalı, müşahidələrin itiliyi hadisələrə çevik publisist münasibəti, qərəzsizliyi və bu sıradan çox xüsusiyyətləri onun ictimai-ədəbi mühitində kifayət qədər tanınmasını şərtləndirir.

Müəllifin ədəbi-bədii-fəlsəfi düşüncələrini janr etibarilə esse adlandırmaq olar. Bir həqiqətdir, esse janr kimi ədəbiyyata və sənətə açıq, aydın münasibətdən daha çox, həyata və dövrə fəlsəfi-məntiqi yanaşmanın ifadəsi kimi meydana gəlmişdir. Bu tipli əsərlər çağdaş tənqidin yeni janr və forma axtarışlarını əks etdirməklə yanaşı, həm də ədəbiyyat və zaman, sənət və həyat, cəmiyyət və onun problemləri ətrafında dövrün ədəbi düşüncəsini, müasir yazarın mövqeyini, bir sözlə, müxtəlif konseptləri əks etdirir. Janrın paradoksallığı arqumentlərin harmoniyası və assosiasiyası, müəllifin şəxsi mövqeyinin üstünlük təşkil etməsi ilə görünür. Aydın söyləm yaxud paradoksal müəyyənlik bu janrı xarakterizə edir.

Abidələr diyarı, Azərbaycanın ecazkar guşəsinin ağrı-acısının səbəbini XIX əsrdə qələmə alınmış sənədli materiallarda axtaran yazıçı postmodernist üslubda orijinal ədəbi esse yazmışdır.

Dünyaşöhrətli söz-sənət korifeylərinin çoxdan əbədiyyətə qovuşduqları bir zamanda erməni faşistləri və terrorçuları bu dahilərin heykəllərini odlu silahlarla yaralayıb oğurlayıblar. Sənət abidələri əridilib, məhv edilərkən Azərbaycanın rəhbərliyinin ayıq-sayıqlığı sayəsində ermənilərin vandalizminə, vəhşiliyinə son qoyuldu və yaralanmış heykəllər "Şuşanın müdafiəsini təşkil edə bilməyənlərə, torpaq qeyrəti çəkməyənlərə göz dağı kimi Bakımıza gətiirildi...".[8] Əsərin ilk misraları tarixin bədii mühakiməsi kimi səslənir. Abidələrə qarşı amansız, nadan hərəkətləri təsvir edən müəllif epiqraf kimi əsərin əvvəlində yazır: "Əsl insanlığa baş ucalığı ilə əbədi şöhrət gətirmiş Xanqızı Xurşudbanu Natəvan, ölməz Üzeyir bəy Hacıbəyov, Maestro Bülbül bu gün sağ olsaydılar, bəşəriyyətə qarşı növbəti cinayət işlətmiş ermənilər xəcalət çəkmədən belə onları doğma şəhərləri Şuşada güllələyərdilər". Qarabağda uyuyan əcdadlarımızın ruhları və dahi sənətkarlara ucaldılmış heykəllərin fəryadını ürək ağrısı ilə dilə gətirir.

"Vicdanın hökmü" – iki hissəli dram Azərbaycanın ən gərgin tarixi səhifələrini vərəqləyib bir müəllim taleyinin hekayəsidir. Birinci hissənin hadisələri Rusiya şəhərinin birində, ikinci də isə Azərbaycan ərazisinin döyüş bölgələrində cərəyan edir. Qarabağdan Rusiyaya Rəhim adlı müəllimin bazarda alver edib anası və iki əkiz qız övladına pul göndərib yaşamaqlarını təmin edən bir gəncin hekayəsi ilə başlayır.

Savadlı, ləyaqətli ziyalı olan Rəhim Fedya kimi tanınan, bazarda reketlə məşğul olan Firudin adlı həmyerlisi ilə qarşı-qarşıya qoyulur.

Təsadüf nəticəsində qəriblikdə rastlaşan, iki həmyerlini təsvir edən müəllif qəhrəmanların dili ilə hər birini xarakterizə edir. "Sən ki, müəllimsən, institutda hamı başına and içirdi, sənə

---

[8] Mirələmov H. Xəcalət. Gənclik. Bakı: 2002, – s.163.

müəllimlər Bala Marks deyirdilər”[9]. Bu sözləri vaxtı ilə tələbə yoldaşı, sevgili nişanlısı olmuş, sonra isə başqa birisinə qoşulub qaçan, indisə məlum olur ki, həmin Firudinin həyat yoldaşı Güllü Rəhim haqqında deyir. Hamını hədə-qorxu ilə əlində saxlayan Roqozin bazarının reketi Fedya öz ad gününə Rəhimi də dəvət edir. Yeddi il ayrılıqdan sonra rastlaşan Güllü ilə Rəhim yenə bir tragik hadisə nəticəsində ayrılmalı olurlar.

Əsərdə gerçəkliyin tarixən tragik bir lövhəsinin rəng çalarlarının bədii dərki müxtəlif mənəvi səslərlə təmsil olunur. Qəhrəmanın faktlara münasibəti bu səsi müasirlərimizin dünyada sülh, əmin-amanlıq ideyaları ilə qovuşdurur.

***“Müharibənin tragik mənzərəsinin hekayə janrında əksi”*** adlı üçüncü paraqrafda müharibənin özülünü, bütün faciələrin bünövrəsini təşkil edən ən ağrılı, mənəvi və əxlaqi gerçəkliyi əks etdirən didərginlik mövzusu ədəbiyyatda nəticə etibarilə xalqın faciəsi səviyyəsində ümumiləşdirildi. Qədim tarixi məskənlərimizi, ulu babalarımızın, oğuz ellərinin yaşadığı torpaqlar, Dədə Qorqudun, Beyrəyin gəzdiyi müqəddəs yerlərin ermənilərin əlinə keçməsinə bu dövr ədəbiyyatında səslənməyə başlamışdır.

“Qəddarlığın, insafsızlığın həddi-hüdudu yox idi. Meyitlərdən bəzisinin başı kəsilmiş, gözləri oyulmuş, bəzisinin sifətində bıçaqla şırımlar açılmışdı. Burada heç kimə nə qocaya, nə hamilə qadına, nə də körpə uşağa, nə xəstə anaya rəhm olunmamışdı. Bu XXI əsrin astanasında erməni vəhşiliyinin növbəti mənzərəsiydi”.[10]

İnsanların daha çox heyvani hərəkətlərini təsvir edən müəllif canavarın qarlı çöldə rast gəldiyi meyitləri iyləyib geri çəkilməsini göstərməklə azərbaycanlıları vəhşicəsinə qətlə yetirən erməni daşnaklarını çöldəki canavarlardan betər olduğunu göstərir.

“Yerindən-yurdundan didərgin düşmüş, yağı mərmisi ilə sinəsi parçalanmış anasını meşədə torpağa tapşırmış,

[9] Mirələmov H. Xəcalət. Gənclik. Bakı: 2002, – s. 209
[10] Yenə orada – s. 99.

ciyərparalarından qopmuş, üstəlik, yaralanmış, əli-ayağı donmuş, niyyətini, məramını bilmədiyi yalquzaqla üzbəüz qalmışdı. Vətən vaxt anlamını itirmişdi. İki gün iki il qədər uzun göründü ona, əvvəl elə bildi ki, canavar onun üstünə atılmağa hazırlaşır. Bəs niyə atılmır, nəyi gözləyir? Bayaqdan canavar onu daban-dabana izləyirdi. İndi ac vəhşi hərəkətlərindən peşman olmuşdu? Vətən süründükcə o da geri çəkilirdi”.[11]

“Xəcalət” povesti xəstə Didara baş çəkməyə gələn sinif yoldaşları “bir-birinin əlindən tutur, alayarımçıq binanın giriş qapısını axtarırlar”.[12] Povest Qarabağ qaçqınlarının həyat hekayələrinə həsr olunmuşdur.

Əsəri oxuyandan sonra “Xəcalət” kimi adlandırılmış povestə bir neçə cavab tapırsan. Bu vətəni qoruya bilməmək xəcaləti idi. Minlərlə şəhid yurddaşının ruhları qarşısında çəkilən xəcalətdi, bu, övladının daxili iztirablarına cavab verə bilməməyin, dost köməyinə vaxtında çata bilməməyinin xəcalətidi və övladlarının törətdikləri cinayətlərə görə, gələcəkdə bəşəriyyət qarşısında cavab tapa bilməyəcək erməni xalqının xəcalətidi.

Xocalı faciəsi Qarabağ müharibəsinin ən dəhişətli səhifəsidir.

Tədqiqat işinin dördüncü paraqrafı ***“Roman janrında qəhrəmanlıq və məhəbbət tarixinin bədii təcəssümü”*** adlanır. İnkişaf etdikcə təkmilləşən, zənginləşən roman janrı 125 ilin məhsulu olmaqla kiçik mövzulardan ciddi qlobal, ictimai, fəlsəfi, siyasi, sosial məsələlərin həllinə yönəlmiş problemlərin həllini ortaya qoyur. Yeni əsr ədəbiyyatımıza yeni mövzu gətirmiş oldu – müharibə.

Yazıçı-publisist Fazil Güneyin “Qara qan” adlı üç hissəli roman-trilogiyası polifonik əsərdir. Min səhifədən artıq olan bu romanda Azərbaycanın məşəqqətli və mübarizəli tarixini qələmə almış nasir sənədli faktlar əsasında bədii əsər yaratmışdır. Bu illərin içindən boylanan insan taleləri bu gün də həyatda olan,

---

[11] Mirələmov H. Xəcalət. Gənclik. Bakı: 2002, – s.93.
[12] Yenə orada, – s.144.

yaxın keçmişimizin iştirakçısı olan qarabağlılardır. Romanın çoxşaxəliliyi geniş obrazlar qaleriyasının yaranması ilə səciyyələnir və müəllif bir-birindən fərqli surətlərin həyat yollarına işıq tutur və onların psixoloji durumundan tutmuş tarixi gerçəklik zəminində milli şüur və məfkurənin təzahürünü diqqətə çəkir.

Müəllif bədii sözlə zamanın ən təkzibedilməz, ən həqiqi tarixini, siyasət məngənəsinə düşən ölkəmizi, onun dilbər guşəsi olan Qarabağ müharibəsinin başlanma prosesini izləmiş, müharibəyə doğru aparan siyasi oyunları dərin bir vətəndaş hissi ilə araşdırmış və ümumiləşdirmişdir. Müharibənin hansı faciələrlə üzləşmiş olduğu soydaşlarımızın mənəvi və fiziki əzabları xalqın öz ruhuna uyğun dildə danışılır.

...Bütün kənd xoşbəxt ovqat içindədir. İnsan həyatının ən ali məqam-iki gəncin toy məclisidir. Bakıdan qohumları da toya təşrif gətiriblər. Jurnalist Aysu da bunların arasındadır. Qələbəlik, sevinc duyğuları bir an içərisində facіə ilə əvəz olunur. Erməni işğalçıları əvvəlcədən hazırlanmış məclisi gülləboran edir, dinc insanlar qırılır, jurnalist qız yağılara əsir düşür.

Roman sevgi və ismət sınağı ilə qarşı-qarşıya qalmış Aysunun əsirliyi fonunda Qarabağ savaşının ilk günlərindən erməni yağılarının onlara arxa olmuş havadarların köməyi ilə Azərbaycan torpağında törətdikləri vəhşilikləri, öz içimizdəki vəzifə, mənsəb naminə qüvvələrimizi parçalamış namərd, naxələf siyasətçilərin əməllərini müşahidə etmiş müəllif bütün hərbi və siyasi gerçəklikləri bədii, xarakterik surətlərlə, inandırıcı boyalarla təqdim edir.[13]

Əsərin Narçiçəklə Ərturun toy səhnəsi mənəvi-əxlaqi problemlərin ifadəsində hadisənin gözlənilməz, qəfil baş verməsi yaranan obrazların bədii təsir gücünü daha dərinləşdirmiş olur. Obrazların təbiiliyi baxımından onların sərt reallığı, əyaniliyi ehtiva etməsindən irəli gəlir.

---

[13] Fazil Güney. “Qara qan” – trilogiya. “QAPP-Poliqraf” Bakı: 2002, – s. 3.

“Biçarə Narçiçək bir neçə addım ata bildi. Güllə səsləri onu çönüb geriyə baxmağa məcbur elədi və o, dəhşətli bir mənzərənin şahidi oldu. BTR-dən yağdırılan güllə yağışı arxasını ağaca söykənmiş Ərturu yıxa bilmirdi. Baxışları ilə Narçiçəyi izləyən Ərtur o, ağacların arasında itənədək, nə qədər mümkünsə dik dayanmaq, sevgilisinin qaçıb namusunu qorumasına öz qanı bahasına şərait yaratmaq istəyirdi...

Sonra o, başını qaldırıb son dəfə doğma yerlərə baxdı, ona sarı tələsən hərbiçiləri qabaqladı, bütün ağırlığı ilə xəncırin üstünə yıxıldı və son gücünü toplayaraq sevgilisini qucaqladı.[14]

Əsir düşən qadınlardan biri də düşmənin qabağında alçalmaq istəməmişdir. Ölümü, namusu şərəfsizlikdən üstün tutmuşdular.

Bu iki gəncin taleyinin müharibə ilə sona çatması ustalıqla və bədiiliklə əsərdə təqdim etməyi bacaran nasir müharibənin bəşəriyyətə qarşı fəlakət olduğunu göstərir. Bir daha fərdlərin vaxtsız ölümü, nakam məhəbbətləri bəşəriyyətin faciəsi kimi düşünülür.

Azərbaycanın milli Qəhrəmanı Mübariz İbrahimovun qısa həyatı və şərəfli döyüş yolu məhz vətən yolunda şəhidlik zirvəsinə ucalması ilə gənclərimizə bir örnək oldu.

E.Elatlının “Qisas gecəsi” romanı Mübarizin həyat yolunu doğum günündən, atasının ona ad verməsindən başlayıb ta son gününə kimi həyatının ən önəmli məqamlarını işıqlandırır. Oxucu onun “ciddi siması, idmançılara məxsus qəddi-qaməti ilə seçildiyini təsadüfən küçədə rastlaşdığı orta yaşlı bir əlil qadının onu “Biləsuvar pələngi”[15] adlandırması ilə Mübarizin zahiri görünüşü ilə bərabər, daxili aləmi ilə də yaxından tanış olur. “Gəzintidən hərbi məktəbə qayıdan iki kursantın üzündə isə təntənəli bir həyəcan oxunurdu. Onlar Silahlı Qüvvələrin Təlim-tədris mərkəzində kurs keçərək gizir rütbəsi almışdılar və iki gündən sonra keçiriləcək “püşkatmada” hansı hərbi hissəyə

---

[14] Fazil Güney. “Qara qan” – trilogiya. “QAPP-Poliqraf” Bakı: 2002, – s. 58– 59.

[15] Elxan Elatlı Qisas Gecəsi, Bakı: Elgün– 2011, – s. 10.

göndəriləcəkləri məlum olacaqdı”.[16] Başqalarından fərqli olaraq Mübariz deyir: “Şəxsən mən deyəcəm ki, püşkatma-filan lazım deyil, məni Murova göndərin..... Neçə gündü hər namazda Allaha dua edirəm ki, ən çətin yerə düşüm. Səngərə.... Həm də atəşkəs ən çox hansı bölgədə pozulursa, oraya”.[17]

Düşməndən qisas almaq niyyəti ilə ön cəbhəyə, ən gərgin sərhəd xəttinə getmək arzusunu belə bildirir Mübariz “Əlimə birinci imkan düşən kimi onların üstünə gedəcəm. Bu mənim çoxdankı arzumdur. Lap uşaqlığımdan bəri...”[18]

Mübariz İbrahimovun timsalında Azərbaycan Respublikasının dövlət müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsi uğrunda həlak olmuş bütün şəhidlərimizin əziz xatirəsinə və onların fədakar valideylərinə ithaf edilmiş bu əsər gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində yüksək mənəviyyatı təbliğ edir. Azərbaycan igidinin bu ibrətli ölümünü müəllif ölümsüzlük, əbədiyyətə qovuşmaq kimi qiymətləndirir.

Rəşadətlə döyüşmüş igid oğullarımızın hər birinin keçdiyi ömür və döyüş yolu dərindən və mükəmməl öyrənilməli və yeni nəslə çatdırılmalıdır ki, varislik qırılmasın.

Dissertasiya işinin ***Nəticə*** hissəsində aparılan araşdırmanın əsas elmi müddəa və qənaətlərini aşağıdakı kimi təqdim edirik:

- ABŞ-da müharibə mövzusundakı əsərlərin inkişafında üç mərhələni göstərmək olar: birinci, klassik dövr – XX əsrin əvvəlindən ortalarına kimi; ikinci, ən məhsuldar modernist dövr – 1950-1970-ci illəri əhatə edir; üçüncü, postmodernist dövr – XX əsrin 70-ci illərindən çağmızadək davam edir. Azərbaycan ədəbiyyatında birinci-klassik dövr, ikinci – (20-80-ci illər) sosrealizm ideologiyasının kontekstində yaranan əsərlər, üçüncü – 80-ci illərdə sovet rejiminin süqutu ərəfəsində yaranmış ölkənin yeni müstəqillik mərhələsi başlaması ilə səciyyələnir və davam etməkdədir. Bu dövr ərzində bədii metodların, ədəbi

---

[16] Elxan Elatlı Qisas Gecəsi, Bakı: Elgün– 2011, – s. 20.
[17] Yenə orada, – s. 21.
[18] Yenə orada, – s. 22.

cərəyanların hər birində və bəzən paralel olaraq onların sintezində müharibə mövzusunda əsərlər yaranmışdır.

–Amerika yazıçılarının müharibə əleyhinə yazılan əsərlərində mübariz-əsgər obrazı ümumiyyətlə yoxdur. Heç də, təəccüblü deyil ki, ən müsbət obraz müharibə əsərlərində fərarilik etmiş olur.

–Azərbaycan əsgəri vətən uğrunda ölümə gedən döyüşçü kimi təqdim olunub. Bunu həm II Dünya Müharibəsinə həsr olunmuş əsərlərdə, həm də Qarabağ haqqında yazılmış bədii nümunələrdə müşayət etmək olar.

–Hər iki ədəbiyyatda nəsrin irəliyə doğru hərəkətini fərqli janrların –hekayənin, povest və romanın, həmçinin fərdi üslubların, hətta üslub təmayüllərinin kontekstində izləmək mümükündür.

–Formadan asılı olmayaraq ədibləri yaxınlaşdıran militarizmin qəti inkarıdır, ümumbəşəri ideyalara sədaqətdir. Tədqiqatda sübut olundu ki, müharibə mövzusu istənilən janrlarda öz əksini tapmışdır.

–Hərbi nəsrin janr müxtəlifliyi poetik strukturundakı yeniləşmə prosesi ilə səciyyələnir, yeni çalarları ilə fərqlənir.

–Birinci dünya müharibəsində müxtəlif ölkə yazıçılarını bir-birinə yaxınlaşdıran əsərlərinin mövzuları və hadisələrə münasibətləri idi. Onlar Birinci dünya müharibəsi illərində bütün həyat arzuları və xəyalları məhv olan burjua ziyalıları nəslinə mənsubdular.

–II Dünya Müharibəsindən sonra ABŞ və Azərbaycan yazıçılarını antifaşizm ideyaları birləşdirir.

–Müharibə mövzusunda yazılan nəsrdə heç şübhəsiz ki, əyləndirici-estetik funksiya, idrakı tərbiyəvi funksiyalardan sonra gəlir.

–Elmi Texniki İnqilabın başlanması ilə bağlı stresslərin artması – yəni zəmanə özü artıq 60-cı illərdən başlayaraq janrlara çeviklik və yığcamlıq gətirən elementlərin gəlməsinə şərait yaratdı. Ədəbiyyatda psixologizm gücləndi, sənət pafosdan, patetikadan, möhtəşəm bədii təsvirlərdən, təfərrüatlardan təbiiliyə endi.

–Qarabağ müharibəsi mövzusunda yazılan bədii və bədii-publisist əsərlər bütövlükdə müasir Azərbaycan ədəbiyyatının ideya istiqamətini dəyişmiş, vətənin nicatı bədii fikir-məğzini çox mühüm amil səviyyəsinə yüksəltmişdir.

–İstər ABŞ, istərsə də Azərbaycan oxucusu müharibə haqqında yazılan əsərlərlə tanış olarkən eyni emosional xaosdan keçmiş olurlar, bu əzabdan pay almış olurlar, günahın, şərin nə olduğunu eyni yolla dərk etmiş olurlar.

–Müxtəlif ölkələrin müharibə haqqında olan əsərlərdə motiv və obraz səsləşmələri, bənzərliyi eyni məna və məzmun kəsb etməsindədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU VƏ ELMİ MÜDDƏALARI MÜƏLLİFİN AŞAĞIDAKI MƏQALƏ VƏ TEZİSLƏRİNDƏ ƏKSİNİ TAPMIŞDIR


1. İbrahimova,V.İ. ABŞ ədəbiyyatında müharibə mövzusunun təşəkkülü // – Bakı: Dil və Ədəbiyyat, – 2016. №2, – s.165-169.
2. İbrahimova,V.İ. Amerika hərbi-bədii Publisistikası // – Bakı: Humanitar Elmlərin öyrənilməsinin Aktual Problemləri, – 2016. №3, – s.113-116.
3. İbrahimova,V.İ. Karabakh war reflected in literature // – California U.S.A : Philology, literatures and linguistics research articles, – 2016. - p.77-79.
4. İbrahimova,V.İ. Məhv olmuş nəslin nümayəndələri Müharibə Haqqında // – Bakı : Azərbaycanda Xarici Dillər , – 2017. № 2, – s. 92-95.
5. İbrahimova,V.İ.Müharibə fantastik roman janrında // – Bakı: Humanitar Elmlərin öyrənilməsinin Aktual Problemləri, – 2017 №3, – s. 68-70.
6. İbrahimova,V.İ.Sinkler Lyuis və Amerika Ədəbiyyatı // – Bakı: Humanitar Elmlərin öyrənilməsinin Aktual Problemləri, – 2019. №5, – s. 114-116.
7. İbrahimova,V.İ. Müharibə Mövzusu Satirik Təqdimatda // –Bakı : Azərbaycanda Xarici Dillər, – 2019 №3, – s. 13-17.

8. Ибрагимова, В.И Антивоенный и антимилитаристический роман США // – Алматы: Вестник, Серия Филологическая, Казахский Национальный Университет имени Аль-Фараби, – 2020. № 1(177), – с. 36-44.
9. Ибрагимова, В.И Художественная военная публицистика // IX International scientific and practical conference, Labyrinths of Reality. Collection of scientifical works, – Montreal: CPM "ASF", – October 14-15, – 2020, – p.16-20
10. İbrahimova,V.İ. Müharibə mövzusu roman janrında // Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində" mövzusunda respublika elmi konfransı., – Bakı: – 17 may, – 2021, – s. 290-293.

Dissertasiya işinin müdafiəsi ____ ____________2022-ci il tarixində saat ____ AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05– Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı ş, Hüseyin Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı.

Dissertasiya ilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ ___________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.06.2022

Kağızın formatı: A5

Həcm: 43897

Tiraj: 100 nüsxə